Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**

# Şəhid şəhər – Xocalı

**Xocalı faciəsinin 25-ci ildönümü münasibətlə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2017**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Şəhid şəhər - Xocalı:** metodik vəsait /tərt.ed.: N. Məcidova, S.Əhmədova ixt. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017. -35s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası -2017**

# Tərtibçidən

Tarixin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırıma məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin fevralında Xocalıda üzləşdi. Yaxın tariximizin ən faciəli səhifələrindən biri olan Xocalı soyqırımı xalqımızın qan yaddaşına əbədi həkk olundu. Təəssüflər olsun ki, Xocalı şəhəri tarixə Xocalı faciəsi kimi düşdü. Bu faciə görünməmiş amansızlıq, qəddarlıq və qətl faktları, öz miqyası və üsulları ilə dünyada və tarix qarşısında bir daha ermənilərin xislətini bütün aydınlığı ilə ortaya qoydu. Bəli, Xocalı faciəsi dünyada qətl və qəddarlıq simvoludur. Azərbaycan xalqı bu faciəni ürək ağrısı ilə öz qlbində yaşadır. Xocalı faciəsinin, eləcə də xalqımıza qarşı dəfələrlə törədilən soyqırımların ötən əsrin sonlarına qədər öz hüquqi qiymətini almaması illər boyu Azərbaycanın üzləşdiyi ən böyük ədalətsizliklərdən biridir. Sovetlər birliyinin süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai–siyasi şəraitdə dövlət müstəqilliyini yenicə qazanan ölkəmizin üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması yeni tariximizə qara hərflərlə yazıldı.Bu dəhşətli faciənin törədilməsindən 25 il ötür. Xocalı faciəsinin qurbanlarını bir daha yada salmaq, tarixin bu qara səhifəsini unutmamaq üçün bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə “Xocalı soyqırımı: tarix olduğu kimi” adlanır və faciənin tarixindən, şəhid qəhrəmanlarından bəhs edir. II hissədə isə faciə ilə bağlı keçirilməsi vacib olan tədbirlərdən söhbət açılır.

# Xocalı soyqırımı: tarix olduğu kimi

Bəşər tarixində ən dəhşətli hadisələrdən biri olan Xocalı soyqırımının törədilməsindən bizi 25 illik bir zaman məsafəsi ayırır. O gecədən ki, təpədən dırnağa qədər silahlanmış erməni quldur dəstələri Qarabagımızın Xankəndi bölgəsində yerləşən 366-cı rus alayı ilə birlikdə Xocalını yandırıb külünü göyə sovurdular. Əliyalın olan dinc sakinləri qəddarcasına qətlə yetirdilər. Girov götürdüklərini təhqir və həqarətlərə, zülm və işgəncələrə məruz qoydular. Azərbaycan xalqı torpaqlarımızın müdafiəsi ugrunda gedən müharibədə çox şəhidlər və qurbanlar verdi. Ancaq Xocalı faciəsi qan yaddaşımıza əbədilik yazıldı. Bu, bir tərəfdən hər bir Xocalı sakininin öz torpağına, millətinə, vətəninə, sədaqətinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi qüvvələrinin xocalılılara qarşı vəhşiliyidir. Faciənin törədilməsinin əsas səbəbi Xocalının erməni qaniçənlərinin yolu üstündə böyük maneə olması idi. Çünki Xocalı Dağlıq Qarabağda həm magistral şosse yolunun, həm də dəmir yolunun üstündə yerləşirdi. Orada hava limanı da vardı. Buna görə də ermənilər hər vəchlə Xocalını ələ keçirməyə çalışırdılar. Bu faciəzamanı bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca qəddarcasına, dözülməz işgəncə verilməklə öldürülüb, 487 nəfərə ağır xəsarət yetirilib, 1275 sakin – köməksiz qocalar, qadınlar girov götürülüb, ağlasığılmaz zülmə, təhqirlərə və həqarətə məruz qalıblar. Erməni hərbçiləri öldürdükləri insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, bəzilərini diri-diri torpağa basdırmış və yandırmışlar. Qeyd edək ki, Xocalı ermənilər tərəfindən ilk dəfə ötən əsrin əvvəllərində-1905-ci ildə yandırılıb, külə döndərilib, əhalisi

vəhşicəsinə qılıncdan keçirilib, qanına qəltan edilib. Onun doğma yurd həsrəti ilə qovrulan didərgin sakinləri ara səngiyəndən sonra yenidən ata-baba torpaqlarının yaralarını sağaltmaq, dağıdılmışları bərpa etmək, yıxılmışları ayağa qaldırmaq üçün geri qayıdıblar. Ermənilər 1918-ci ildə Xocalını ikinci dəfə yandırıb, külünü havaya sovurublar. 1992-il fevralın 25-dən 26-na keçən gecə Xocalıda yeni dəhşətli soyqırım törədildi. Bu haqda nə qədər yazılsa da ürəyimizdəki bu dəhşət, bu ağrı, kin-küdurət, intiqam hissi yenə də susmaq bilmir və bilməyəcək də. Azərbaycan xalqına qarşı aparılan misli görünməmiş bu soyqırım, amansız qırğın aktı, erməni qəsbkarlarının ölkəmizin dövlət müstəqilliyini, ərazi bütövlüyünü hədəf almış məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla bərabər, təkcə xalqımıza deyil, bütün insanlığa qarşı irimiqyaslı cinayətdir. Erməni təcavüzü nəticəsində respublikamızın 900 yaşayış məntəqəsi zəbt edilmiş, 4366 sosial obyekt, 690 məktəb, 280 uşaq bağçası, 862 klub, 932 kitabxana, 1831 kino qurğusu, 855 məktəbəqədər müəssisə, 656 poliklinika, ambulatoriya, aptek və digər tibb müəssisəsi, xalqın ibadət yeri olan 10 məscid dağıdılmış, Ermənistandan qovulmuş soydaşlarımızın 380 kəndi zəbt edilmiş və əhalisinin bütün var-dövləti orada qalmışdır. Sağ qalan şahidlərin dediyinə görə, şəhərə olan hücumdan sonra Xocalı bir anın içində odlara qalandı. Heç kəsə - nə körpələrə, nə qocalara, nə qadınlara, nə də yaralılara aman verilmirdi. Qatillər arasında zəncilər, muzdlular da var idi. Ermənilər xüsusi qəddarlıq göstərir, qadınlara, körpələrə və qocalara ağır işgəncələr verərək öldürürdülər. Ağdam, Şuşa, Laçın istiqamətinə çıxan yollar əvvəlcədən zirehli texniki vasitələrlə, tanklarla kəsilmişdi. Ölümün pəncəsindən xilas olmaq üçün meşələrə, dağlara, dərələrə üz tutub pərən-pərən olmuş adamları güllələyirdilər. Ana baladan, bacı qardaşdan ayrı düşmüşdü. Köməksiz

adamların harayı ərşə qalxırdı. Bu harayın içində tövlələrdə yandırılan atların kişnəməsi, mal-qaranın mələməsi də eşidilirdi. Düşmən olduqca amansız idi. Bu məqamda heç kim Xocalının imdadına çatmadı. Xocalı qan içində boğuldu, yanıb külə döndü

Fevralın 27-də Xocalıdan 250-300 nəfər Ağdama gələ bilmişdi. Dəhşətli xəbərlər eşidilirdi. Bu dözülməz dəhşətləri gözlərilə görən şahidlər deyirdilər ki, Yarov kəndi tərəfdə 300 nəfər, Ağbulaqda 500 nəfər, Əsgəranda 150 nəfər, Naxçivannikdə 400 nəfər əsir düşmüşdü. Meşələr qadın və uşaq meyitləriylə dolu idi.Azərbaycan xalqı torpaqlarımızın müdafiəsi ugrunda gedən müharibədə çox şəhidlər və qurbanlar vermişdir. Ancaq Xocalı faciəsi qan yaddaşımıza xüsusi yazıldı.Ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Çingiz Mustafayev misilsiz hünər göstərərək fevralın 28-də vertolyotla faciə yerlərində olmuş, erməni quldurlarının törətdiyi vəhşilikləri kamera ilə lentə almiş və tarixin yaddaşına yazmışdır.

## *2. Faciənin 25-ci  ildönümü ilə əlaqədar*

## *keçirilə biləcək tədbirlər*

Kütləvi tədbirlər kitabın, elektron nəşrlərin və digər çap məhsullarının geniş oxucu kütləsi arasında təbliğ edilməsində xüsusi rol oynayır. Hər bir kütləvi tədbir oxucularda müəyyən bir mövzu haqqında konkret təsəvvür yaradır, həmin mövzularda gedən müzakirələrin iştirakçısına çevirir, bununla




bağlı mövcud ədəbiyyatla tanış edir. Azərbaycan ərazisinin bir hissəsi erməni işğalçılarının tapdağı altında qaldığından və müharibə təhlükəsi hələ də sovuşmadığından keçirilən tədbirlərin əsas mövzusu hərbi vətənpərvərlik tərbiyəsinə həsr olunmalıdır. Müharibə şəraitində yaşayan bir ölkədə gənc nəsildə torpağa, vətənə məhəbbət hisslərinin aşılanması, düşmənə nifrət duyğularının formalaşması vacibdir və bu mövzuda yazılmış bədii əsərlərin təbliğinə daha geniş yer verilməlidir. Vətən müharibəsində iştirak etmiş və qəhrəmanlıqlar göstərmiş azərbaycanlılar haqqında, Dağlıq Qarabağ müharibəsi, 20 Yanvar, Xocalı faciəsi, Şuşanın, Laçının və başqa rayonların işğalını əks etdirən əsərləri dönə-dönə oxucuların diqqətinə çatdırmaq lazımdır. Artıq hər il 26 fevral tarixində ölkəmizin hər yerində Xocalı qurbanlarını anım günü keçirilir. Bu il o dəhşətli gecədən 25 il keçsə də, Azərbaycan xalqı bu faciəni ürək ağrısıyla qəlbində yaşadır. Hər bir azərbaycanlının ürəyində bu faciə XX əsrinən dəhşətli günlərindən biri kimi qalıb. Xocalını anım günündə fəal oxucuları cəlb etməklə, müxtəlif formalı tədbirlər hazırlamaq olar. Kitabxanada oxucuların istifadəsi üçün www.clb.az saytında məlumat-biblioqrafiya şöbəsi tərəfindən hazırlanmış

*“Qarabağ bizi səsləyir”, “Xocalı qan yaddaşımız” adlı* slayd, *“Xocalıya qayıdacaq, Xocalıda doğulanlar” adlı tammətinli* ədəbiyyat siyahısı yerləşdirilmişdir. Kitabxanada faciəni daha dolğun əks etdirən materiallardan slayd, Xocalı faciəsindən bəhs edən bədii əsərlərdən icmal, disskusiya və müzakirələr, Xocalı faciəsinə həsr edilmiş kompozisiyalar hazırlamaq olar. Slaydda faciənin qurbanları haqqında məlumat, milli qəhrəmanlar və s. haqqında məlumatlar verilir. Anım günündə faciədən bəhs edən kitabları oxuculara tanıtmaq üçün təşkil edilən kitab sərgisinin sxemini aşağıda veririk: Sərgiyə müxtəlif başlıqlar vermək olar. “Xocali faciəsi bədii ədəbiyyatda”, “Qan qoxuyan rəqəmlər” ,”Şəhid şəhər-Xocalı” və s.



























Həmçinin faciənin şahidləri ilə *"Onlar doğma yurdalırına qayıdacaqlarına inanırlar"* adlı keçirilən görüş zamanı mətbuatdan götürdüyümüz yazılara əsasən bu faciə haqqında başqa şahidlərin fikirlərini də iştirakçılara çatdıra bilərik. Kitabxanada Xocalı faciəsindən bəhs edən anım gecəsi də, təşkil edilə bilər. Anım tədbirinə hazırlaşarkən zalın tərtibatına xüsusi fikir vermək lazımdır: divarlara Xocalı dəhşətlərini əks etdirən şəkillər vurulmalı, *"Xocalı- dərdim mənim", "Körpələrin qanını yerdə qoymarıq!" və s.* şüarlarla dolu olan lövhəciklər vurula bilər. Şəkillərin altına qərənfillər düzülə bilər. Zalda kamançanın qəlbləri göynədən, yanıqlı, həzin musiqisi səsləndirilə bilər. Tədbirin I hissəsində qəlblərə dağ çəkən bu faciə haqqında ətraflı məlumat verilir. Burada ermənilərin törətdiyi dəhşətlər, onların insanlığa sığmayan əməlləri, ana-bacılarımızın, körpə və qocaların, ümumilikdə bütün xalqımızın başına açdıqları müsibətlər barədə geniş danışılır. Tədbirin II hissəsində oxucular tərəfindən, Xocalıya aid şeir parçaları söylənilir, hazırlanmış səhnəciklər göstərilir. Bunun üçün gecəyə qanlı faciənin şahidləri, tarixçilər, yazıçılar, mətbut nümayəndələri və s. dəvət olunurlar. Tədbirə kitabxana yaxınlığındakı məktəblərin müəllim və şagirdlərinin də dəvət olunması yaxşı olar.

**Aparıcı: -** Salam, hörmətli tədbir iştirakçıları. Artıq qanlı-qadalı Xocalı faciəsindən 25 il keçir.

*Mən hardayam, qadir Allah, hardayam?*
*İçim zülmət, çölüm zülmət, dardayam.*
*Ətrafımda yalquzaqlar ulaşır,*
*Hara qədəm qoyuramsa, ayağım*
*Ölənlərin qanlarına bulaşır...*

Bəli, bu hadisə ilə bağlı neçə-neçə şeirlər, bədii əsərlər laylalar yazıldı. Xocalı soyqırımı zamanı yüzlərlə soydaşımızın həyatına son qoyuldu. Bütöv bir şəhər məhv edildi. Günahsız insanlar ağır işgəncələrə məruz qalaraq isti ocaqlarından didərgin düşdülər. Amma faciənin acı fəsadları bununla bitmədi. Soyqırım Xocalıdan gələn xocalıların taleyindədə acı izlər buraxdı.Gəlin Aygün İsmayılova adlı bir gəncin dediklərini sizinlə birgə bölüşək. Bu təsviri oxucumuzun hazırladığı kompazisiya şəklində dinləyək.

*Səhnəyə həzin musiqi sədaları altında iştirakçı daxil olur.*

**Aygün İsmayılova: -** Mən üçaylıq uşaq olanda atamızı itirmişdik, iki yaşım olmamış da doğma yurdumuzu – Xocalımızı itirdik. Həm də dəhşətli formada. Faciə zamanı üç gün mühasirədə qalmışıq. Anamız üç azyaşlı uşağını çətinliklə xilas edib. Ən böyüyümüz altı yaşlı, kiçiyimiz isə yaşyarım idi. Bir qadın bizi qarlı, çovğunlu havada gizlədə-gizlədə bir neçə kilometr aparıb. Mühasirədə olduğumuz üç günün iki gününü meşədə olmuşuq. Mən soyuqdan, aclıqdan çox ağlayırmışam. Çörək istəyəndə anam mənə qar yedizdirirmiş. Hətta düşmənin əlinə keçməyək deyə anam məni boğmaq da istəyib. Sonra anamdan məni başqa qadın alıb paltoya büküb ki, səsim eşidilməsin. Beləcə, minbir zülümlə xilas olmuşuq. Xocalını, orada törədilən qırğınları xatırlamasam da, elə bil oranı küçəbəküçə gəzib dolaşmışam. Mən indi müəllliməyəm.

Mənimlə bərabər bütün şagirdlərim Xocalı dəhşətləri haqqında olanlardan xəbərdardır. Bu faciə bizim taleyimizə qaçqınlıq yazsa da, doğma vətənə, doğma torpağa olan sevgimizi dəyişə bilməyib.

**II oxucu, Elmir Əliyev: -** Elə gün olmaz ki, biz Xocalı, orada baş verənlər haqqında danışmayaq. Ağlımız yenicə kəsəndə Xocalı faciəsini qorxulu nağıllar kimi bir-birimizə danışardıq. İndi 26 yaşım var. Bu faciəni bütün dəhşətləri ilə dərk edirəm.

**III oxucu, Əmanət Abışov: -** Xocalıdan çıxanda bir yaşım olub. Və təbii ki, faciədən heç nə xatırlamıram. Ancaq valideynlərim bu barədə o qədər danışıblar ki, sanki hər şey gözümün qabağında baş verib. Ona görədə orta məktəbdə bu hadisə haqqında müəllimlərimdən, evdə valideynlərimdən eşitdiklərimi gördüyüm hadisə kimi qavrayıram. Bəzən elə olur ki, istəyirəm lap silaha sarılıb düz Xocalının mərkəzinə qədər gedim. Atamın böyüdüyü evə, kəndə yaxından tamaşa edim. Hamı oranın gözəl olmasından danışır. Harada və hansı şəraitdə yaşamağımızdan asılı olmayaraq, Xocalı bizim ata yurdumuzdur. Mütləq ora qayıdacağıq. *13 yaşlı Ləman Kərimova da Xocalıda baş verənlər barədə çox şey bilir:*

**IV oxucu, Ləman Kərimova:** - Xocalıda bizim valideynlərimizə, ata-babalarımıza işgəncə verilib. Anamın başına gələnləri bilsəniz dəhşətə gələrsiniz...

**Aparıcı:** - Ləmanın anası Dürdanə xanım Xocalı faciəsi zamanı səkkiz gün əsirlikdə olub. Həmin vaxt iyrimi yaşı olan Dürdanə rabitəçi olduğuna görə ermənilər ona daha ağır işgəncə veriblər. Dürdanə Ağayeva Xocalı faciəsi və əsirlik həyatını özünün *"8 gün cəhənnəm əzabı görmüş qadın"* kitabında qələmə alıb. Xocalı faciəsindən 25 il ötsə də xalqımız hələdə bu faciənin ağrısıyla qovrulur. Təbii ki, bu faciə söz sənətində də öz ağrısı

ilə yaşayıb və yaşayacaqdır. Xocalı faciəsi haqqında olanları gənc nəslə aşılamaq üçün yazılmış kitabların, bədii əsərlərin təbliği lazımdır. Bu əsərlərdən *Nüşabə Məmmədlinin "Zəngulə", Sevinc Nuruqızının "Qisas", Səriyyə Müslümqızının "Xocalı uşaqları – qan içində qar çiçəyi", " Xocalıdan gələn var"* kitabları Xocalı faciəsi fonunda yazılmış nümunələrdəndir. Bu mövzu ilə bağlı kitabxanada "*Tarixin səhnəsindən bu ölkə necə görünür" başlığı altında*




müzakirə keçirmək olar. Müzakirədə *nəinki* Xocalı faciəsi, erməni daşnaklarının tarix boyu azərbaycanlılara qarşı törətdikləri qırğınlar haqqında iştirakçılara məlumat verilir. Bu haqda məlumatı Sülhiyyə Musaqızının **"**Azərbaycan terrorizmin caynağında" kitabından da əldə edə bilərik. Müzakirəyə bu əsərləri oxumuş yuxarı sinif şagirdləri, tələbələr dəvət olunurlar. Müzakirədə bu faciədən bəhs edən onlarla bədii əsərin - şeirin, oçerkin, romanın, hekayənin, publisistik məqalənin adını çəkmək olar. Məsələn: Xalq şairi Zəlimxan Yaqubun *"O qızın göz yaşları"*, Ələmdar Quluzadənin *"Şəhid şəhər"*, Ələkbər Salahzadənin *"Xocalı Xəcilləri"*, Ədalət Əsgəroğlunun *"Dərdimizin qan rəngi"* və s. Zəlimxan Yaqubun *"O qızın göz yaşları"* poeması əsasında belə bir əhvalat durur. Xocalı faciəsinin 13-cü ildönümü ilə əlaqədar şəhidləri anma günü keçirilirdi. Dərdini dilə gətirənlərə bir-bir söz verilirdi. 21 yaşlı Xocalı qızı Xəzangülə də söz verildi. Ermənilər onun 36 yaşlı anası Rəna xanımı, 5 yaşlı bacısı Yeganəni Əsgəran meşəsində güllə ilə dəlik-dəlik etmişdilər. 38 yaşlı atası Təvəkkülü, 8 yaşlı Xəzangülün gözləri baxa-baxa diri-diri yandırmışlar.

Təvəkkülün günahı ondan ibarət olmuşdur ki, ermənilər ona "Qarabağ erməni torpağıdır" sözünü dedirdə bilməmişlər. Beləcə Xocalıdan gələn qızın, qəmli, faciəli hekayəti başlayır. Ancaq poema təkcə o qızın göz yaşları ilə məhdudlaşmır. Poemada ən təsirli məqam atanın ağaca sarılıb vəhşicəsinə qətlə yetirilməsidir. Araşdırmaçı fikirlərinə görə, şair bu şeirdə kifayət qədər metafora və bənzətmələrdən istifadə etmişdir. Məsələn, bu səhnəyə "göydən ulduz baxırdı, qayadan çiçək baxır, zirvədən buz baxır, yaraların üstünə səpilən düz baxırdı, burada ağac da Təvəkkülə ürək-dirək verirdi, odunu söndürməyə dağlar külək verirdi." Hələ ötən əsrin 70-ci illərində ədəbiyyata gələn, özünəməxsus dəst-xətti ilə seçilən Ələmdar Quluzadə 20-dən çox şeir kitabının müəllifidir. Şairin doğulub boya-başa çatdığı Xocalının ermənilər tərəfindən işğal edilməsi, uşaqdan-böyüyə yüzlərcə dinc sakinin vəhşicəsinə qətlə yetirilməsi onun qəlbində və qələmində ağrılı-acılı iz buraxmışdır. Yazdığı əsərlərdə müəllif öz qələmi ilə Vətən oğullarını ayıq-sayıq olmağa, dostu düşməndən, əbədini ötəridən seçməyə çağırır. Onun Xocalıya həsr etdiyi təxminən 1500 misraya yaxın olan *"Şəhid şəhər"* poemasında müəllif lirik-publisistik tərzdə Qarabağda baş verən bütün hadisələri təsvir etmişdir. Kitabxanada Xocalıya aid ədəbi-bədii kompozisiya da keçirilə bilər. Kompazisiyanin ssenarisini təqdim edirik.Səhnəyə 2 nəfər böyük yaş qrup oxucu (oğlan və qız) çıxaraq Xocalıya aid şeir söyləməyə başlayırlar. Bu şeirlərdən bu il yubileyi qeyd edilən Ələmdar Quluzadənin Xocalıda qətlə yetirilmiş 613 nəfərə ithaf etdiyi "614-cü şəhid" şeirini seçmək olar:

Qoy odlasın bu dünyanı
Acı dilim, od nəfəsim.
Ölüm mənim vüsalımdı,
Həyat mənim daş qəfəsim.

Qılıncını qından sıyır,
Qumbaranı tax kəmərə,
Alçaq düşmən əl qaldırıb
Ağbirçəyə, südəmərə.

İçimizdən, çölümüzdən
Başımızı qatan qatdı,
Bir gecədə Şəhidlərim
613-ə çatdı....

Şeirin davamı müəllifin ***"614-cü şəhid"*** kitabında verilmişdir.

**Aparıcı:** - Biri var idi, biri yox idi, axar baxarlı, başı ağ çalmalı, həyatın hər səhnəsinin şahidi, hər günlərini inamla salamlayan, sabahlara ümidlə göz dikən, dağların qoynunda Xocalı adlı bir cənnətməkan var idi. Qarabağın sinəsində yer alan bu ocaqda hər səhər göylərin nazlı gözəli günəş təbbəsümü ilə insanları yuxudan oyadırdı.

Günlərin bir günü...
Bu dağların qoynunda yaşıl bir kənd varıydı,
Əlvan saray, güllü bağ, gen aynabənd varıydı.
Neçə dodağı şəkər, söhbəti qənd varıydı,
Neçə incəbel gözəl, zülfü kəmənd varıydı.
Yoxdu daha nağıldı,
İtdi, batdı, dağıldı,
Mənim şirin qafiyəm, mənim üççə hecalım,
Xocalım, ay Xocalım.

*Səhnəyə böyük yaş qrupundan olan 2 nəfər oxucu (oğlan və qız) çıxaraq Xocalıya aid şeir söyləməyə başlayırlar.*

**I oxucu:** -Xocalıdan səs gəldi:
"Kömək edin, amandı!"
Güllələrin səsindən
Ot tutdu, aləm yandı.

Tənha qaldı Xocalı,
Kömək edən olmadı.
Dağıldı şəhər bütün,
Ondan əsər qalmadı

**II oxucu**: -Erməni-rus ordusu
Basqın etdi qəflətən.
Qadın, qoca, uşağı
Qətlə yetdi qəflətən.
Bələkdəki körpələr
Süngülərə taxıldı.
Günahsız insan qanı
Su yerinə axırdı.

**I oxucu:** - Adamların qanıyla
Yuyuldu ana torpaq.
İşgəncələr verildi
O gün xalqıma,Allah
Güllələndi millətim,
Tapdalandı qeyrətim
Xocalıda o gecə.

**II oxucu**: - Dünya niyə susubdur,
Məgər görməyir bunu?
Müdafiə edirlər
Erməni quldurunu.
Susduracam od qoxan
Cingiltili səsini.
Qulağını aç, eşit,
Koroğlu nərəsini

**(I və II oxucu sonuncu bəndi bir yerdə)**
-Cinayətkar cəzasın
Çəkməlidir onu bil

Xocalı mənimkidir,
Düşmənim, geri çəkil!

*Şeiri söylədikdən sonra baş əyib səhnəni tərk edirlər. Sonra 3 nəfər ağ libaslı (ölən uşaqların ruhları) kiçik yaş qrupundan olan oxucu və 1 nəfər böyük yaş qrupundan olan oxucu (qız) ana libasında səhnəyə çixaraq şeirlər söyləyirlər.*

*Ana ağlayaraq uşaqlardan soruşur:*

-Niyə külə döndünüz,
Ay körpə balalarım?
Hansı nağılların siz,
Deyin qəhrəmanısız?
Sizin ki, yox idi bir
Kiçik də təqsiriniz?
Bəs hansı fitnəkarın
Oldunuz şikarı siz?
Dünyaya göz açdınız
Təlaşlı bir zamanda.
Müharibə başlandı!..
Qırılaydı əlləri
Düşmənin başlayanda.
Gülüşünüz qurudu
Südlü dodağınızda,
Səsiniz də uduldu
Elə boğazınızda.
Yalnız qaçhaqaç görür,
Bir də eşidirdiniz:
-Atəş! Haray! Ay haray!
Erməni gəldi, haray!

**I oxucu:** - Dağıldı ev-eşiyimiz,
Uçuldu beşiyimiz!
Xəyanətin əliylə,
Düşmənin əməliylə.
Dünyada əziz olan,
Amalı təmiz olan
Atamızı itirdik,
Əzizdən əziz olan
Anamızı itirdik

**II oxucu:** - O anda ki açılmaq
İstəməyən güllələr
Tuşlandı üzümüzə
Şıdırğı yağış kimi
Töküldü üstümüzə
Qönçə gül-çiçək kimi
Bizi vaxtsız biçdilər,
Qanımıza bulanıb,
Qanımızdan içdilər.
Səsimiz, fəryadımız
Göylərə ucalırdı,
Sanki hər bir güllədən
Dağlar da qocalırdı.

**III oxucu:** - O qaniçən cəlladlar
Bəli, aldatdı bizi.
Ağa-boza baxmadan
Heç süd dişi çıxmayan
Körpələrə qıydılar.
Döyə-döyə qırdılar,
Söyə-söyə qırdılar:
-Türkün nəsli gərəkdir

Bələkdəcə qırıla,
Süngülərdən keçirilə,
Al qanında qıvrıla.
Deyə-deyə qırdılar,
Döyə-döyə qırdılar,
Biz körpə fidanları
Allah qırsın onları.

**Ana** - Qoymazlar ki, qanınız
Yerdə qala, balalar.
Laylasın anam mənə
Belə demiş dönə-dönə:
"Bir anan mən, biri Vətən"...
A körpəcə fidanlar,
Unudulmaz o anda
O vaxtlar, o zamanlar.
Bu gün xalq da, Vətən də
Unutmamışdır sizi.
Azadlıq arzusuyla
Alışan qəlbinizi,
Neçə-neçə igidi.
Siz rahat uyuyun ki,
Qalib gələr həqiqət!
Neçə ay, il keçsə də,
Zəfər çalar ədalət!

*İştirakçılar baş əyərək səhnəni tərk edirlər.*

**Aparıcı: -** 1992-ci ilin fevralı idi, bu füsnkar məkanın üstünü qara buludlar aldı. İşıqlı sabahlara can atan yurdumuz erməni qəsbkarlarının iştahına tuş gəldi. Bir işğalçı olaraq bədnam qonşularımız füsnkar gözəlliyin əsiri oldular.

Ağzından alov çıxan silahlar yedi səni,
İştahalar, nəfslər, tamahlar yedi səni.

Bağışlanmaz, yuyulmaz günahlar yedi səni.
... Heç Allah götürərmi qisasımı gec alım?
Xocalım, ay Xocalım!

**Aparıcı:** - 25-dən 26-na keçən gecə dinc sakinlər onları daha dəhşətli bir faciənin gözlədiyini bilmirdilər. Həmin gecə bir ailənin taleyi belə oldu. Leyli dəhşətli atışmanın səsindən oyananda saat 10-nun yarısı idi. Həm çöldəki tükürpədici vahimənin səsi, həmdə evdə yalqızlıq xofu onu bürüdü. Ana təlaş içində beşikdə yatan körpəsinə doğru boylandı. Qorxu içində olan ana özünü itirdi.Neçə müddət idi ki, həyat yoldaşı Xocalı aeroport postunda keşik çəkirdi.Ana pəncərəyə yaxınlaşır. Bu an qarşılaşdığı mənzərədən sanki başı hərlənir. Xocalı alov içində yanırdı. Onun qarşılaşdığı bu mənzərə sanki cəhənnəm idi.

Ana bir anlıq beşiyə tərəf cumur və yuxulu körpəsini qapır və alovun içində özünü ora-bura vuran camaatla vurnuxmağa başlayır. Nəhayət cəhənnəmdən qurtulmaq üçün şaxtalı fevral günündə körpəsi ilə birgə qaranlıq meşəyə doğru üz tutur. Lakin hara üz tutsa da yağı onların başının üstünü quduz kimi kəsmişdi. Buzdan qaysaq bağlamış Qarqar çayını keçərkən körpəsini bağrına basır.

**Ana:** -"Yox... Yox... mən səni heç kəsə vermərəm, mənim balam!"Özünü yox, körpəsini xilas etmək üçün var gücü ilə qaçır.

*(Aparıcı səhnəyə gəlir)*

Müharibə, Düşmən, Şaxta... Bu üçhökmlü qorxular içərisində ana qayaya doğru qaçmağa başlayır. Hənirti eşidir. Ana ətrafına boylanır. Hər tərəfi qarla örtülmüş yerdə ləpirlərdən başqa heç nə görmür. Birdən uzaqdan topa gələn bir qaraltı görür. Dəhşət içərisində mağaraya tərəf qaçaraq gizlənir. Ara sakitləşəndən sonra mağaradan çıxır. Bu zaman ona elə

gəldi ki körpəsi donur. Ehmalca qucağındakı körpəsinin üzünü açdı... Boş yorğanı əlləri ilə ələk-vələk elədi. Körpə yox idi.Yoxx!!! ola bilməz. Ana ağlaya-ağlaya çönüb arxaya baxır. Geri dönmək istəyir. Amma bacarmır...




Xocalı soyqırımı haqqında həqiqətlərin dünya xalqlarına çatdırılmasında, bəşəriyyətə qarşı ən böyük cinayətlərdən biri olan bu faciə haqqında beynəlxalq miqyasda dolğun təsəvvürlərin formalaşdırılmasında sənət nümünələrinin də rolu böyükdür. Sənətkarlarımızan bu faciəyə həsr edilmiş kino, musiqi, teatr, və rəsm əsərləri dünyanın bir çox ölkələrində nümayiş etdirilir. Bu əsərlər Heydər Əliyev Fondunun təşəbbüsü ilə neçə illərdir ki, Xocalı faciəsini Azərbaycana qarşı törədilmiş soyqırım aktı kimi tanıdılmasında böyük rol oynayır. Rəssamlarımızın qəlb ağrısı ilə müraciət etdiyi bu mövzuda ilk növbədə fırça ustası Vaqif Ucatayın silsilə işlərini və xüsusilə ***"Xocalı"*** plakatını qeyd etmək olar.

Sinəsinə düşmən xəncəri sancılmış körpəni əks etdirən bu plakat hər kəsdə şəhidlərə mərhəmət, faciəni törədənlərə isə nifrət hissi aşılayır.

 

*Digər rəssamlardan Mayis Əliyevin "Haray", "Xocalıya ithaf", Cəmil Quliyevin "Xocalı", Abdulla Ələkbərovun "Qarabağın sabahı", Səbuhi Məmmədovun "Yaralı ana", "Dəhşət", Sabir Çopuroğlunun "Xocalı harayı", Rövşən Məmmədovun "Torpağın harayı", "O qan yerdə qalmaz", Vüqar Quliyevin "Sönmüş ocaq" və s. əsərlərdə* faciənin ayrı-ayrı məqamları işıqlandırılmışdır.Xocalı faciəsinin anım günündə rəssamların əsərlərindən ibarət *"Xocalı soyqırımı: sənət yaddaşımızın ağrılı səhifəsi kimi"* başlıqlı sərgiyə baxış keçirilir. Bu sərgidəki əsərlər Xocalı soyqırımının dəhşətlərini oxuculara rəssamların dili ilə deyəcək. Bu soyqırımın dəhşətləri sənətin müxtəlif sahələrində də öz əksini tapmışdır. Faciənin adının əbədiləşməsi üçün ölkəmizdə böyük işlər görülmüşdür. Bakıda yerləşən Xocalı faciəsi abidəsi Xocalı şəhidlərinin xatirəsinə ehtiramın nümunəsidir. Özündə ana kədərini əks etdirən bu heykəlin müəllifi tişə ustası Aslan Rüstəmovdur. Yaxın keçmişin acı həqiqətlərini gələcək nəslə çatdırmaq üçün Xocalı qətliamına həsr edilmiş bu sənət nümunələrinin təbliği kitabxanada əsas yer tutur. Sərgidən sonra bu abidəyə ***"Dünyanın ən dəhşətli faciəsi"*** adlı ekskursiya

təşkil etmək olar. Bunun üçün öncə yaxınlıqdakı hər hansı məktəbin rəhbərliyi ilə danışılır və müəyyən siniflə ekskursiya üçün vaxt təyin edilir. Burada kitabxanaçı faciə haqqında şagirdlərə ətraflı məlumat verir. Məlumat üçün Xocalı faciəsindən bəhs edən kitablardan istifadə edilə bilər. Xocalı həqiqətlərini dünyaya çatdırmaq son illər xeyli işlər görülmüş, xarici dillərdə kitablar nəşr edilmiş, filmlər çəkilmiş, saytlarda məlumatlar yerləşdirilmişdir. Soyqırımla bağlı məlumatların oxuculara hərtərəfli çatdırılması üçün biz kitabxanaçılar da fəallıq göstərməliyik.Xocalı həqiqətlərini dünyaya çatdırılmasında çəklimiş filmlərimizin də müstəsna əhəmiyyəti vardır. Bu qətliamla bağlı ilk bədii film Nüşabə Məmmədovanın “Haray” filmidir. *Xocalı faciəsinin 25-ci ildönümü ilə bağlı kitabxananın oxu zalında bu filmləri oxucular üçün nümayiş etdirmək olar.* Qətliamla bağlı olan bu film Xocalı həqiqətlərinin kinoda dolğun ifadəsidir. Rejissor Oruc Qurbanovun quruluşunda ərsəyə gələn kinolentdə Xocalıda baş verənlər insanlığa qarşı törədilmiş tükürpədici hadisə kimi təsvir olunur. Ermənilərin azərbaycanlı əsirlərə qarşı törətdikləri işgəncələrə şahid olan iki yeniyetməni baş qəhrəman kimi təqdim edən bacı və qardaşın intiharı ekran əsərini çox təsirli edir. Digər ekran əsəri rejissor Mərahim Fərzəlibəyovun çəkdiyi “Qırmızı qar” filmidir. Xocalı və Qarabağ mövzusunda daha bir ekran əsəri Elxan Qasımovun çəkdiyi ***“Biz qayıdacağıq” filmidir***. Film Xocalıdan olan yeniyetmə oğlanın həyatından bəhs edir. Son dövrlər çəkilən *“Xoca”* filmi isə mövzuya daha yaxınlaşaraq, Xocalının işgalı ərəfəsindəki ağrılı məqamlara söykənir. Bu gün Qarabağı geri qaytarmaq Azərbaycanın ərazi bütövlüyünü, torpaqlarımızın toxunulmazlığını bərpa etmək, Azərbaycan dövlətçiliyinə əbədiyyət qazandırmaq, Azərbaycanda separatizmin kökünü kəsmək haqqımızı kimsə əlimizdən ala bilməz. Vətən oğlu Qarabağ bu gün bizim üçün Tanrı sınağı,

qeyrət rəmzidir. Qarabağ bizim yaşam pasportumuzdur. Qarabağsız Azərbaycan ruhsuz candır. Bu gün Qarabağ milli qeyrət, milli mənlik, milli özünüdərk, olum-ölüm yolu, gələcək nəsillər qarşısında məsuliyyət hissi deməkdir. Qarabağı unutsan, bu gününlə, sabahınla, varlığınla, həyatınla vidalaşmalı olacaqsan. Bu gün səni məhv etməyi, varlığını tarix səhnəsindən silməyi qarşısına məqsəd qoymuş erməni-daşnaq faşizmi ilə üz-üzəsən. Qarabağ uğrunda mübarizə aparmalısan. Bu mübarizə sənin yaşamaq haqqın, həyat sevincindir. Qan yaddaşını oyat! Tarixdən ibrət dərsi götürməyənləri tarix özü cəzalandırır.

# Ədəbiyyat siyahısı:

## Kitablar:

Beynəlxalq hüquq normaları Xocalıda soyqırımının həyata keçirildiyini birmənalı təsdiqləyir // Erməni xəyanəti : terror, soyqırım və deportasiya siyasəti. – Bakı : Avropa, 2009. – S.102-116.

**Biz o yurdlara** qayıdacağıq : foto kitab. - Bakı : "QHT nəşriyyatı", 2013. - 152 s.

**Bizi əsirlikdən qurtarın** = Release us from captivity. - Bakı : Qismət, 2006. - 680 s. : foto, xəritə. - Azərbaycan və ingilis dillərində.

**Erməni Terroru** = Armenian Terror = Армянский Террор. – Bakı : Vətən, 2005. – 168 s.

**Əhmədov Q.** Ermənilər bizi üç gün ov kimi ovladılar, qarışqa kimi qırdılar // Erməni xəyanəti : terror, soyqırım və deportasiya siyasəti. – Bakı : Avropa, 2009. – S.117-118.

**Əroğul Ə**. Erməni-daşnak faşizminin törətdiyi "Xocalı soyqırımı" insan ağlının qəbul etmədiyi vəhşanəlikdir // Əroğul Ə. Erməni-daşnak faşizmi və Azərbaycan. - Bakı : Təhsil, 2007. – S.350-363.

**Əroğul Ə.** XX əsr Azərbaycan türkünün soyqırımı əsridir // Erməni-daşnak faşizmi və Azərbaycan. - Bakı : Təhsil, 2007. – S.364-370. – Məqalədə soyqırımının illər üzrə sayının cədvəli verilmişdir.

**Hicran F.** Qarabağda talan var.- Bakı : Gənclik, 1992.- 160s.

**Xəlilqızı Ə.** Güllələnmiş uşaqlıq = Растрелянное детство = Shot Through ChildHood. – Bakı : Çaşıoğlu, 2007. - 297 s.

**Xocalı soyqırımı -** 20 : biblioqrafiya. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2012. - 313 s. - Azərbaycan və rus dillərində.

**Qarabağ: dünən, bu** gün fotoşəkillərdə = Karabakh:

Yesterday and Today : in photos = Карабах: вчера, сегодня : в фотоснимках = قراباغ الامس و اليوم الصور الفتوغرافية : kitab-albom - Bakı : İndiqo, 2007. - 200 s. : foto. - Azərbaycan, ingilis, rus və ərəb dillərində.

**Məhərrəmli Z.** Xocalı taborunun əsgəri : Zöhrə Lətif qızı Quliyeva haqqında // Məhərrəmli Z. Qırx qız dastanı. – Bakı : 2003. – 315 s.

**Məhərrəmzadə Ə. S.** Xocalı soyqırımı : ermənilərin Azərbaycanlılara qarşı apardığı soyqırım siyasətinin xronologiyası. - Bakı : Adiloğlu, 2011. - 184 s.

**Məmmədov S.** Tarixi saxtalaşdırmaq cinayətdir. II hissə. - Bakı : Ziya NPM, 2015. - 256 s.

**Musaqızı S.** Azərbaycan terrorizm caynağında. – B. : Təfəkkür, 2004. – S. 156.

**Müslümqızı S.** Dünya susmasın gərək = World should not keep silence : Sənədli xronika. - Bakı : Yazıçı, 2014. - 84 s. : foto. - Azərbaycan və ingilis dillərində.

**Müslümqızı S.** Xocalıdan gələn var = Guest from. - Bakı: 2008. - 254 s. : fot. - Azərbaycan və ingilis dillərində.

**Müslümqızı S.** Qar üstünə qan yağırdı.- B.: Azərnəşr, 1993.- 184 s.

Onlar heç vaxt böyüməyəcəklər = They will never grow up = Они никогда не станут взрослыми/ "Azərbaycan yolu" Siyasi Hərəkatı; red. : M. Nazimoğlu. – Bakı : Çaşıoğlu, 2005. - 96 s.

**Seyidzadə M. M.** Milli qəhrəmanlar zirvəsi. - Bakı : BS Polygraphic, 2010. - 256 s.

**Səlimbəyli Ş. Ə.** Erməni terroru : 5 cilddə. I kitab : Qarabağda müharibənin başlanması : Hadisələr... faktlar... - Bakı : Avropa, 2008. - 400 s. : foto.

**Səlimbəyli Ş.** Erməni terroru : 5 cilddə. I kitab : Qarabağda müharibənin başlanması : Hadisələr... faktlar... - Bakı : Avropa, 2008. - 400 s.

**Səmədov V.** Leyla Əliyeva "Xocalıya ədalət!"

(Beynəlxalq erməni terroruna qarşı yeni strateji model) : monoqrafiya : 3 cilddə. I cild. - Bakı : CBS, 2014. - 344 s.

**Səmədov V**. Leyla Əliyeva "Xocalıya ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model) : monoqrafiya : 3 cilddə. II cild. - Bakı : CBS, 2014. - 376 s.

**Səmədov V.** Leyla Əliyeva "Xocalıya ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model) : monoqrafiya : 3 cilddə. III cild - Bakı : CBS Polygraphic production, 2014. - 480 s.

**Sultanov Z.** Xocalı faciəsi.- B.: İşıq, 1993.- 51 s.

**Zamanov N**. Xocalı. Bizim bilmədiyimiz həqiqətlər // Erməni terroru – Bakı : Avropa, 2008. – S.337-350.

## *Elektron resurslarda*

Azərbaycan tarixi [Elektron resurs] : XI-sinif. Ən yeni dövr III hissə. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. yaddaş(fləşkart) : rəngli, az.

## Xocalı faciəsinə həsr olunmuş bədii əsərlər
## Kitablar

**Çəmənli M.** Fred Asif : sənədli roman. – B.: Təhsil, 2010. – 224 s.

**Elatlı E**. Cəhənnəmdən gələn səs : roman. – B.: Elgün, 2011. – 368 s.

**Gün N.** Xocalı simfoniyası : rekviyem : Azərbaycan, rus və ingilis dillərində. – B.: Vektor Nəşrlər Evi, 2006. - 82 s.

**Həşimli A**. Arpaçayın nisgili. – Bakı : Qələm, 2012. – 96 s.

**İsabəyli Q.** "Aclıq" dərsi. - Bakı : Şirvannəşr, 2014. - 8 s. - Kitab Azərbaycan və ingilis dillərindədir.

**Məmmədli N.** Zəngulə.- Bakı : Qapp-poliqraf, 2004.- 224 s.

**Müslümqızı S.** Xocalı uşaqları - Qan içində qar çiçəyi = Дети Ходжалы - снежный цветок в крови = Children of Khojaly - bloody primroses : povest. - Bakı : Yazıçı, 2013. - 120 s. - Azərbaycan, rus və ingilis dillərində.

**Nuruqızı S**. Qisas. - Bakı : Vektor, 2005. - 140 s.

**Sadiq Ş**. Ümidlərin izi ilə : kriminal-detektiv roman. - Bakı : Hədəf nəşrləri, 2012. - 431 s. : il.

**Səmədli Ə.** Qanlı bənövşə - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1996. – 48 s.

**Sonam B.** Qanlı dərə.- Bakı : Qanun, 2004.- 44 s.

**Sonam B.** Sahibsizlik. – Bakı : Qanun, 2004. – 52 s.

**Soyqırım:** Erməni terrorizmi : [bədii və sənədli əsərlərdən ibarət toplu]. – B.: MBM, 2009. – 164 s.

**Vəkiloğlu M.** Soyqırım= Геноцид. – Bakı : Təhsil, 2010. – 245 s.

**Yaqublu N.** Xocalı soyqırımı. - Bakı : Elm və Təhsil, 2012. - 188 s.

## Kitablarda

**Abuzərli N.** Xocalı soyqırımı // Abuzərli N. Elçilər. – B. :Şivannəşr,2004. – S.195-196.

**Ağabalayev Ü.** Xocalıda faciə : şeir // Ağabalayev Ü. Soltanəlinin uğursuz taleyi. – Bakı : Şirvannəşr, 2010. – S. 137.

**Dəlidağ Ş.** Qarabağın harayı : cinaslar poeması // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.406-421.

**Dəmirçi Z.** Cavab ver : Xocalıya həsr olumuş poema // Dəmirçi Z. Qayalı. – B. : UniPrint, 2008. – S.211-226.

**Dilbazi M.** Xocalı fəryadı : pyes // Seçilmiş əsərləri. - Bakı : Lider, 2004. - S.242-248. ; Fikir ümmanında : əsərlərindən seçmələr. – Bakı : E.L. NPŞ MMC, 2014. – S.472-480.

**Fazil Ş.** Bığ : şeir // Azərbaycan harayı. - Bakı :

Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.203.

**Fərhadoğlu K.** Xocalı : şeir // Dağlarda nisgilli bir ağım qalıb. - Bakı : E.L., 2008. - S.16-17.

**Həsənli S.** Xocalı : şeir // Həsənli S. Qəlbimdə yurd həsrəti var. – Bakı : Təfəkkür, 2005. – S.97.

**Həsənli S.** Xocalı : şeir // Həsənli S. Barışmam səninlə, barışmam dünya. – Bakı : Təfəkkür, 2004. – S.25.

**Həşimov A.** Xocalı harayı : şeir // Arpaçayın nisgili. – Bakı : Qələm, 2012. – 67-69.

**Horovlu Ş.Z.** Elim yandı Xocalıda : şeir // Horovlu Ş.Z. Babam iki alıb. – Bakı : 2006. – S.51.

**Horovlu Ş.Z.** Xocalıya – gedək bizə : şeir // Horovlu Ş.Z. Babam iki alıb. – Bakı : 2006. – S.56.

**Xəzri N.** Xocalıda ərik ağacı : şeir // Seçilmiş əsərləri. 2 clddə. - Bakı : Lider, 2004. – C.1. - S.98-100.

**Xınalı Z.** Xocalı : şeir // Xınalı Z. Vətən sevgisi. – Bakı : Adiloğlu, 2007. – S.39.

**Xuraman.** Xocalı hey... : mənsur şeir // Anasız qalan dünyam. - Bakı : Nərgiz, 2008. - S.79-80.

**Kəsəmənli N.** Xocalı : şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S.247-249. ; Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.108. ; Kəsəmənli N. Heyf o sevgiyə. - Bakı : Maarif, 2006. - S.103-105.

**Qaramuradlı M.Y.** Xocalıdan gəlirəm : şeir // Qaramuradlı M. Qədərində götür. – Bakı : Vektor Nəşlər Evi, 2007. - S.77.

**Qudyalçaylı M.** Qara səhifələr ; Ağ atım - qırmızı atım : şeirlər // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.257-258.

**Quluzadə Ə.** Gözlə, Xocalı, gözlə : şeir // Quluzadə Ə. Qadan mənə, Qarabağ. - Bakı : Ozan, 2006. - S.54-56.

**Quluzadə Ə.** Salam, Xocalı dərdim: şeir // Quluzadə Ə. Qadan mənə, Qarabağ. – Bakı : Ozan, 2006. - S.53-54.

**Quluzadə Ə**. Şəhid şəhər : poema // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. – S. 446-500.

**Məğrur Y.** Xocalı : şeir // Gəlirəm Qarabağ. – Bakı : Yazıçı, 2014. – S.27.

**Məğrur Y**. Layla, Xocalım, layla // Gəlirəm Qarabağ. – Bakı : Yazıçı, 2014. – S. 28-29.

**Məmmədli S.** Xocalı qaldı : şeir // Yalnız qələm dözür ağırlığıma. - Bakı : Vektor Nəşlər evi, 2014. – S.48.

**Musaqızı S.** Xocalı soyqırımı tarixin səhnəsində : poemadan bir hissə // Azərbay-can terrorizm caynağında. – Bakı: Təfəkkür, 2004. – S.54-59.

**Nazimoğlu R.** Ağla, Xocalım, oy ağla : şeir // Nazimoğlu R. Ağla, Xocalım, ağla. - Bakı : Araz, 2006. - S.12-14.

**Nazimoğlu R.** Kədər himni : şeir // Nazimoğlu R. Ağla, Xocalım, ağla. - Bakı : Araz, 2006. - S.41-43.

**Pənah G.** Xocalı, ay Xocalı : iki pərdəli pyes // Bura Vətəndir. - Bakı : Azər, 2001. - S.313-348.

**Pənahoğlu F.** Xocalım mənim : şeir. – Bakı : Adiloğlu 2006. – S.39.

**Rüstəmxanlı S.** Xocalıya mərsiyə ; Xocalıdan sonra ; Düşmən əlində ; Heyif ; Yumruqlar çiçək açıb ; Vur güllənі : şeirlər // Seçilmiş əsərləri. - Bakı : "Şərq-Qərb", 2004. - S.208-210. ; Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.127-132.

Rza O. Xocalı : şeir // Azərbaycan harayı. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. - S.197.

Şuşalı İ. Xocalı dəhşətini eşidəndə mən! : şeir // Şuşalı İ. Unudulmaz abidədir bu kitab. – Bakı : Nurlan, 2009. – S.94-95.

**Şuşalı İ.** Xocalılar ürəyində qərar tutub adın sənin! : Xocalıda şücaət göstərmiş Sabir Məmmədova həsr olunmuş şeir // Şuşalı İ. Unudulmaz abidədir bu kitab. – Bakı : Nurlan, 2009. – S.70.

**Şuşalı İ.** Xocalının keşiyində dayanmısan : Xocalıda

şücaət göstərmiş Sabir Məmmədova həsr olunmuş şeir // Şuşalı İ. Unudulmaz abidədir bu kitab. – Bakı : Nurlan, 2009. – S.68-69.

**Şuşalı İ.** Xocalıya qayıdacaq : şeir // Şuşalı İ. Unudulmaz abidədir bu kitab. – Bakı : Nurlan, 2009. – S.98-99.

**Şuşalı İ.** Şəhid olsalar da şanlı yol keçib : şeir // Şuşalı İ. Unudulmaz abidədir bu kitab. – Bakı : Nurlan, 2009. – S.70.

**Şuşalı İ.** Unudulan dəhşət deyil : şeir // Şuşalı İ. Unudulmaz abidədir bu kitab. – Bakı : Nurlan, 2009. – S.96-97.

**Ülvi Ə.H.** Özümə qənim özüm : Xocalı faciəsi haqqında poema // Heydər baba nəğməsi. - Bakı : Şirvannəşr, 2006. - S.73-88.

**Yaqub Z**. Layla, Xocalım, layla : şeir // Seçilmiş əsərləri. 2 cilddə. - Bakı : Şərq-Qərb, 2006. – C.2. - S.87-89.

**Yaqub Z.** Xocalım, ay Xocalım : şeir // Seçilmiş əsərləri. 2 cilddə. - B. : Şərq-Qərb, 2006. - C.2. - S.101-103.

### *Elektron resurslar*

**Xəlilqızı Ə.** Güllələnmiş uşaqlıq [Elektron resurs] = Растрелянное детство = Shot Through Childhood. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : foto. - (Nizami layihəsi). - Azərbaycan, rus və ingilis dillərində. - (qutuda).

**İbrahimova G.**Vətən və mən [Elektron resurs] : nağıllar, hekayələr və şeirlər. Disk 10. - Bakı : STS MMC, 2014. - 1 el. opt. disk (CD-ROM) : səsli. - (qutuda).

### *Onlar Xocalı uğrunda döyüşmüşlər(Azərbaycanın Milli Qəhrəmanları)*

### Hacıyev Əlif Lətif oğlu (1953 - 1992)

**Cəmilzadə H**. Əlif Lətif oğlu Hacıyev. Qarabağ cəngavəri // Cəmilzadə H. Azərbaycanın ilk Milli Qəhrəmanları.

– Bakı : İşıq, 1993. – S. 67 - 90.

**Əsgərov V.** Hacıyev Əlif Lətif oğlu // Azərbaycanın Milli Qəhrəmanları. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2005. – S.75.

**Hüseynova Ş.** Ürəklərdə yaşayırsan, Əlif : sənədli povest. – Bakı: Zaman, 1999.- 64 s.

**Nazim N.** Hacıyev Əlif Lətif oğlu (1953- 1992) // İstiqlal ulduzları (Azərbaycanın Milli Qəhrəmanları). – Bakı : Azərnəşr, 1995. – S. 57 –59.

**Səmədov V., Aslanov S.** Əlif Lətif oğlu Hacıyev (1953 -1992) // Təki Vətən yaşasın... – Bakı : Azərbaycan, 1993. – S. 100-107.

**Hüseynov Tofiq (1954 -1992)**

**Əsgərov V.** Hüseynov Tofiq Mirsiyab oğlu // Azərbaycanın Milli Qəhrəmanları. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2005. – S.93.

**Səmədov V.,** Aslanov S. Tofiq Mirsiyab oğlu Hüseynov (1954 - 1992) // Vətən üçün lazım gəlsə... – Bakı : "Azərbaycan", 1994.- S. 99-108.

**Süleymanov M.** Tofiq Hüseynov // Milli Qəhrəmanlar. – Bakı : Azərnəşr, 1994. – S.75-86.

Quliyev Aqil (1963 - 1992)

Əsgərov V. Quliyev Aqil Sahib oğlu // Azərbaycanın Milli Qəhrəmanları. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2005. – S.119.

Nazim N. Quliyev Aqil Sahib oğlu (1963-1992) // İstiqlal ulduzları (Azərbaycanın Milli Qəhrəmanları) – Bakı : Azərnəşr, 1995. – S. 96-97.

**Seyidzadə M.** Quliyev Aqil Sahib oğlu // Milli Qəhrəmanlar zirvəsi. – Bakı: Milli Qəhrəmanlar Beynəlxalq

İnformasiya Mərkəzi, “Milli Qəhrəmanlar” qəzetinin kompüter Mərkəzi, 2010. – S.124.

**Səmədov V.,** Aslanov S. Aqil Sahib oğlu Quliyev (1963-1992) // Təki Vətən yaşasın... – Bakı : Azərbaycan, 1993. – S.55-61.

**Süleymanov M.** Xocalı müdafiəçələri // Süleymanov M. Milli Qəhrəmanlar. – Bakı : Azərnəşr, 1994. – S. 86 – 113.

**Vəfadar Ş.** Aqil dünyası. - Bakı : Yazıçı, 2005. - 96 s.

## Məhərrəmov Asif (1952 - 1994)

**Çəmənli M.** Fred Asif : sənədli roman. – Bakı : Təhsil, 2010. – 224 s.

**Əsgərov** V. Məhərrəmov Asif Yusif oğlu // Azərbaycanın Milli Qəhrəmanları. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2005. – S.133-134.

**Seyidzadə M.** Məhərrəmov Asif Yusif oğlu // Milli Qəhrəmanlar zirvəsi. – Bakı : Milli Qəhrəmanlar Beynəlxalq İnformasiya Mərkəzi, “Milli Qəhrəmanlar” qəzetinin kompüter Mərkəzi, 2010. – S.153.

## Nəzərli Hikmət (1966 - 1992)

**Əsgərov V.** Nəzərli Hikmət Baba oğlu // Azərbaycanın Milli Qəhrəmanları – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2005. – S.172.

**Seyidzadə M.** Nəzərli Hikmət Baba oğlu // Milli Qəhrəmanlar zirvəsi. – Bakı : Milli Qəhrəmanlar Beynəlxalq İnformasiya Mərkəzi, “Milli Qəhrəmanlar” qəzetinin kompüter Mərkəzi, 2010. – S.171.

**Səmədov V.,** Aslanov S. Hikmət Baba oğlu Nəzərli (1966- ?) // Təki Vətən yaşasın... – Bakı : Azərbaycan, 1993. – S. 90-99.

**Süleymanov M.** Xocalı müdafiəçiləri // Mili Qəhrəmanlar. – Bakı : Azərnəşr, 1994. – S. 86-113.

## Novruzov Ələsgər (1949 - 1992)

**Əsgərov V.** Novruzov Ələsgər Xanlar oğlu // Azərbaycanın Milli Qəhrəmanları. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2005. – S.174.

**Seyidzadə M.** Novruzov Ələsgər Xanlar oğlu // Milli Qəhrəmanlar zirvəsi. – Bakı : Milli Qəhrəmanlar Beynəlxalq İnformasiya Mərkəzi, "Milli Qəhrəmanlar" qəzetinin kompüter Mərkəzi, 2010. – S.179.

## Rüstəmov Füzuli (1965 - 1992)

**Əsgərov** V. Rüstəmov Füzuli Salah oğlu // Azərbaycanın Milli Qəhrəmanları. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2005. – S.185.

## Rzayev Canpolad (1968 - 1992)

**Əsgərov V.** Rzayev Canpolad Yaqub oğlu // Azərbaycanın Milli Qəhrəmanları. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2005. – S.189.

**Seyidzadə M.** Rzayev Canpolad Yaqub oğlu // Milli Qəhrəmanlar zirvəsi. – Bakı : Milli Qəhrəmanlar Beynəlxalq İnformasiya Mərkəzi, "Milli Qəhrəmanlar" qəzetinin kompüter Mərkəzi, 2010. – S.194.

**Səmədov V.,** Aslanov S. Canpolad Yaqub oğlu Rzayev (1968 - 1992) // Vətən üçün lazım gəlsə... – Bakı : "Azərbaycan", 1994.- S. 156 – 163.

**Süleymanov M.** Ömür yenidən yaşanır // Milli Qəhrəmanlar. – Bakı : Azərnəşr, 1994. – S. 113-121.

## Senyuşkin Sergey (1957 - 1992)

**Əsgərov V.** Senyuşkin Sergey Aleksandroviç // Azərbaycanın Milli Qəhrəmanları.– Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2005. – S.196.

## Səlimov Araz (1960 - 1992)

**Əsgərov V**. Səlimov Araz Bahadır oğlu // Azərbaycanın Milli Qəhrəmanları. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2005. – S.203.

**Seyidzadə M.** Səlimov Araz Bahadır oğlu // Milli Qəhrəmanlar zirvəsi. – Bakı : Milli Qəhrəmanlar Beynəlxalq İnformasiya Mərkəzi, “Milli Qəhrəmanlar” qəzetinin kompüter Mərkəzi, 2010. – S.199.

# Şəhid şəhər – Xocalı
( metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 5
Çapa imzalanmışdır:08.02.2017
Tirajı:100
Pulsuz